# TOVUZ

VƏTƏN, XEYİRXAHLIQ, ƏDALƏT UĞRUNDA!

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1929-cu ildən çıxır * № 05-06 (7599-7600) * 30 mart 2022-ci il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik


# Tovuzda Novruz bayramı təntənə ilə qeyd olunmuşdur







Tovuz şəhərindəki Heydər Əliyev meydanında Novruz bayramı münasibətilə ümumrayon şənliyi keçirilmişdir.

Bahar qız, Kosa və Keçəl faytonda meydana daxil olmuş, tədbir iştirakçılarını salamlamışlar.

Sonra meydanın mərkəzində quraşdırılmış rəmzi tonqal qalanmış, idmançıların ifasında tamaşalar nümayiş etdirilmiş, milli oyunlar, Novruz adət-ənənələri, milli xörəklər, şirniyyatlardan ibarət “Novruz” sərgisi iştirakçılara təqdim olunmuşdur.

Rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov, hüquq mühafizə orqanlarının rəhbərləri meydanda sərgilənən Novruz adət-ənənələri ilə tanış olmuş, şəhid ailələrini,qaziləri və sakinləri bayram münasibətilə təbrik etmişlər.





Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov çıxış edərək tovuzluları və qonaqları bayram münasibətilə təbrik etmiş, ölkəmizdə milli-mənəvi dəyərlərin, adət-ənənələrin qorunub saxlanması və daha da inkişaf etdirilməsində ümummilli lider Heydər Əliyevin və onun layiqli davamçısı Prezident İlham Əliyevin xidmətlərini xüsusilə vurğulamışdır. Qeyd edilmişdir ki, Azərbaycanı qədim sivilizasiyanın mərkəzi kimi tanıdan misilsiz dəyərlərdən biri də müqəddəs Novruzdur.

Elə buna görə də Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Novruz bayramı UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmişdir. Diqqətə çatdırılmışdır ki, bu ümumxalq bayramı ölkəmizin hər yerində olduğu kimi, Tovuz rayonunda da böyük ruh yüksəkliyi ilə qeyd olunur.

Cənab Prezident İlham Əliyevin qətiyyəti və siyasi iradəsi ilə bu günlər ölkəmizin dayanıqlı inkişafına yönələn mühüm islahatlar həyata keçirilir.

2020-ci ildə baş verən və Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə Rəşadətli Azərbaycan Ordusunun qazandığı böyük Zəfərdən sonra Xalqımız bu bayramı Qalib Xalq olaraq qeyd edir. Həmin tarixi qələbədən sonra belə bayramlarda xalqımızın sevinci birə-beş artmışdır.

Şənlikdə rayon mədəniyyət mərkəzinin bədii özfəaliyyət kollektivinin təqdimatında geniş konsert verilmiş, Kosa və Keçəlin duzlu-məzəli zarafatları tədbir iştirakçılarında xoş ovqat yaratmışdır.

***“Tovuz”***





**Forma 4**

"Tovuz kredit Ittifaqı" Məhdud Məsuliyyətli Cəmiyyəti

Hesabat dövrü: 4-cü rüb 2021-ci il

Hesabatın tərtib edilmə tarixi: 05 yanvar 2022-ci il

**Mənfəət və zərər haqqında Hesabat**

(manatla)

| Maddələr | Hesabat rübü | Ilin əvvəlindən hesabat rübü daxil olmaqla |
|---|---|---|
| **I.Faiz gəlirləri cəmi:** | **39535** | **144287** |
| a) verilmiş kreditlər üzrə | 39535 | 144287 |
| b) Dövlət qiymətli kağızları üzrə | | |
| **2. Faiz xərcləri cəmi:** | **0** | **0** |
| a) kreditlər üzrə | | |
| b) digər | 0 | 0 |
| **3. Xalis faiz gəliri (zərər) (1-ci sətir çıxılsın 2-ci sətir)** | **39535** | **144287** |
| **4. Qeyri-faiz gəlirlərinin cəmi:** | **4380** | **18223** |
| a) qeyri-adi gəlirlər | 2446 | 10888 |
| b) digər gəlirlər | 1934 | 7335 |
| **5. Qeyri-faiz xərclərinin cəmi:** | **35518** | **120912** |
| a) əmək haqqı və ona bərabər tutulan xərclərin cəmi | **29671** | **100133** |
| a1) əmək haqqı və əlavələr | 25217 | 84943 |
| a2) mükafatlar | | |
| a3) sosial tə"minat xərcləri | 4453 | 15190 |
| a4) kompensasiya və müavinətlərin digər növləri | | |
| b) əsas vəsaitlərlər bağlı xərclər | **3000** | **12000** |
| b1) icarə haqqları | 3000 | 12000 |
| b2) amortizasiya | | |
| b3) əsas vəsaitlərlə bağlı digər xərclər | | |
| c) əməliyyat və komisyon xərcləri | 169 | 555 |
| d) digər xərclər | 2678 | 8224 |
| **6. Əməliyyatlardan daxil olan mənfəət (zərər) (3-cü sətir üstəgəl 4-cü sətir çıxılsın 5-ci sətir)** | **8397** | **41598** |
| 7. "Xüsusi ehtiyat fondu"nun yaradılmasına ayırmalar (xərclər) | 2689 | 25627 |
| **8.Vergilər çıxılanadək mənfəət (zərər) (6-cı sətir çıxılsın 7-ci sətir)** | **5708** | **15971** |
| 9. Mənfəətdən ödənilən vergilər | 3194 | 3194 |
| **10. Vergilər çıxılandan sonra xalis bölüşdürülməmiş mənfəət (zərər) ( 8-ci sətir çıxılsın 9-cu sətir)** | **2514** | **12777** |

**İzahat:** 8-ci sətr üzrə zərər yaranarsa, bu məbləğ 10-cu sətrə köçürülür

İdarə Heyətinin Sədri — *Qələndərov Cavid Novruz oğlu*

İdarə Heyətinin məsul üzvü: — *Sadıqzadə İlkin Şahin oğlu*

**Forma 3**

"Tovuz kredit Ittifaqı" Məhdud Məsuliyyətli Cəmiyyəti

Hesabat dövrü: 4-cü rüb 2021-ci il

Hesabatın tərtib edilmə tarixi: 05 yanvar 2022-ci il

**Balans**

| | BALANSIN MADDƏLƏRİ | Məbləğ |
|---|---|---|
| | **AKTİVLƏR** | |
| 1 | Nağd pul | 885 |
| 2 | Bank hesabları | 160 |
| 3 | Kreditlərin cəmi | 553717 |
| 4 | Xüsusi ehtiyat fondu | 35298 |
| 5 | Xalis kreditlər (kreditlər çıxılsın "Xüsusi ehtiyat fondu") | 518418 |
| 6 | Dövlət qiymətli kağızları | |
| 7 | Əsas vəsaitlər | 0 |
| 8 | Hesablanmış faizlər | 12333 |
| 9 | Digər aktivlər | 832 |
| 10 | **Aktivlərin cəmi:** | 532628 |
| | **PASSIVLƏR** | |
| | **Öhdəliklər** | |
| 11 | Alınmış kreditlər | 0 |
| 12 | Ödəniləcək faizlər | |
| 13 | Digər öhdəliklər | 5994 |
| 14 | **Ohdəliklərin cəmi:** | 5994 |
| | **Kapital** | |
| 15 | Nizamnamə kapitalı | 376671 |
| 16 | Bölüşdürülməmiş mənfəət (zərər)* | 149963 |
| 16.1 | Keçmiş illərin xalis mənfəəti (zərər) | 137186 |
| 16.2 | Cari ilin xalis mənfəəti /zərəri | 12777 |
| 17 | **Kapitalın cəmi:** | 526634 |
| 18 | **Passivlərin cəmi:** | 532628 |

* KI zərərlə işləyərsə, bu zərər mənfi işarə ilə mötərizədə əks etdirilməlidir

İdarə Heyətinin Sədri: — *Qələndərov Cavid Novruz oğlu*

İdarə Heyətinin məsul üzvü: — *Sadıqzadə İlkin Şahin oğlu*

# BÖYÜK ÜRƏKLİ TOVUZLU



Gəlib necə yetmişə çatdın? Səni ilk dəfə görəndə cavan, sütül bir gənc idin. Ətraflı tanışlığımız doxsanıncı illərin əvvəllərində oldu.Onda mən Tovuz Rayon İcra Hakimiyyətində işləyirdim. Siz Tovuz Xeyriyyə Cəmiyyətində maliyyə işlərinə baxirdınız. Akif İsmayılovla döyüşçülərə yardım gətirmişdiniz.



O dövrdəki fəaliyyətiniz bu gün də tovuzlular tərəfindən yüksək qiymətləndirilir və heç vaxt unudulmur.Nələr işlər görmədiniz? Yalnız alqışlanmalıdır bu işlər.

Sizin rəhbərliyiniz və təşkilatçılığınızla çoxsaylı xüsusi buraxılışlar çap olunub. Onlar Tovuzun elm adamları,ziyalıları haqqındadır. Eləcə də başqa bölgələrdən olan ziyalılarımıza, tanınmış insanlara verdiyiniz dəyəri yüksək qiymətləndiririk.Hər bir buraxılışlarda,kitablarda imzanızın imzamla bir olmasından çox məmnunam.Siz böyük ürəkli tovuzlusunuz.

Çingiz Abbasov vətənsevər,yurdsevər türk oğludu.Min yaşa,var ol,əziz qardaşım!

Sizin haqqınızda çox deyilib,çox yazılıb.-Məndən də bir xatirə qalsın deyə bu şeiri yazdım.

### A DAĞLAR OĞLU

Eşqimiz bulaqlar bizi gözləyir,
Sularından içək,a dağlar oğlu.
Tovuzun aranı,yaylağı gözəl,
Min görək,bir seçək,a dağlar oğlu.

Yollarında açsın nərgiz,bənövşə,
Tanrım özü səbəb dursun hər işə.
Gözəllərdən payın olsun həmişə,
Təzə tər gül-çiçək, a dağlar oğlu.

Öysüzlü elləri,Əsrik dərəsi,
Gözəldi Xınnanın bəndi,bərəsi.
Haçaqayanın var öz mənzərəsi,
O yerlərə keçək,a dağlar oğlu.

Şirin balalardı dövlətin,varın,
Nemətlər yetirsin bağın,baharın.
Nəvələr xoş günün,xoş arzuların,
Ağ günlərin görək, a dağlar oğlu.

Qalacaq yadigar sözün var olsun.
Sönməyən ocağın,közün var olsun,
Bir gün çatacağıq,yüzün var olsun,
Yetmişin mübarək,a dağlar oğlu.

Doğum günün mübarək.Çingiz Abbasov!
***Yüzündə görüşmək ümidi ilə.***

***Çingiz Qəribli.***



## Elan

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsi tərəfindən Tovuz rayonu Abulbəyli kənd sakini Ələkbərov Sübhan Əbülfət oğlunun adına verilmiş M|V 000600 nömrəli vəsiqə itdiyi üçün etibarsız sayılır.

BAŞ REDAKTOR
Çingiz Qəribli

**Ünvanımız:**
*Tovuz şəhəri, Şəhriyar küçəsi, 3,*
*Telefon: (022)315-35-23*
*tovuz.1929@mail.ru*

*Redaksiyaya göndərilən əlyazmalar geri qaytarılmır. Dərc olunan məktublardakı faktlara və elanların məzmununa görə redaksiya məsuliyyət daşımır.*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Son dakika" mətbəəsində çap olunmuşdur.*
*Sifariş.254. Tiraj: 300.*